Hacı Həsən Hüseyni

Qərib İmam Rza (ə) Xorasan Şahı

Bakı - 2022

Rəyçi: **Axund Hacı Soltan Əlizadə**

Redaktor: **Mirzə Vərağa Almaslı**

Korrektor: **Rüfət Əbdürrəhmanov**

Hacı Həsən Hüseyni,
"Qərib İmam Rza (ə) Xorasan Şahı"
Bakı, «İMZA» nəşrlər evi, 2022, 32 səh.

Müəllifin dini-tarixi şəxsiyyətlər silsiləsindən olan bu kitabı səkkizinci İmamımız Xorasan Şahı İmam Rzaya (ə) həsr olunmuşdur.

İSBN 978-9952-37-440-11

© Hacı Həsən Hüseyni - 2022

İMAMƏT SƏMASININ SƏKKİZİNCİ PARLAQ ULDUZU QƏRİB İMAM RZANIN(Ə) MÜBARƏK MÖVLUDU

Bismillahir-Rəhmanir-Rəhim!

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"

Peyğəmbərin (s) xüsusi səhabələrindən olan Cabir İbn-Əbdullah Ənsariyə aid edilən bir rəvayətdə belə qeyd edilmişdir: "Bu ayə nazil olduqda, Peyğəmbərdən (s) soruşdum: "Ey Allahın rəsulu (s), Allah və Peyğəmbərini tanıdıq, bəs əmr sahibləri kimlərdir ki, Allah onlara itaəti öz itaəti ilə yanaşı qeyd etmişdir?". Peyğəmbər (s) buyurdu: "Ey Cabir, onlar mənim canişinlərim və məndən sonra müsəlmanların rəhbərləridirlər. Onların birincisi Əli ibn Əbu Talib (ə), sonra Həsən (ə), sonra Hüseyn (ə), sonra Əli ibn Hüseyn (ə), sonra Tövratda Baqir adı ilə qeyd edilmiş Məhəmməd ibn Əlidir (ə). Cabir, sən onu tezliklə görəcəksən. Onunla görüşəndə salamımı ona çatdırarsan. Ondan sonra Sadiq Cəfər ibn Mühəmməd (ə), sonra Musa ibn Cəfər(ə), sonra Əli ibn Musa(ə), sonra Məhəmməd ibn Əli, Əli ibn Mühəmməd (ə), sonra Həsən ibn Əlidir (ə). Sonra Həsən ibn Əlinin oğlu Məhəmməd, mənim adaşım, həmkünyəm, Allahın yer üzündəki dəlili və Allahın bən-

dələri arasında qoruduğudur. O, elə bir şəxsdir ki, Allah onun vasitəsilə öz adını bütün dünyaya yayacaq. Bu qeyb şəraiti elə olacaq ki, Allah qəlbini iman ilə yoxlamayıncaya qədər heç kəs onun imamətinin inamında sabitqədəm olmayacaq". Dedim: "Ey Allahın rəsulu (s) o, qeybdə olduğu vaxt şiələr ondan faydalanacaqlarmı?" Buyurdu: "Bəli, and olsun məni peyğəmbər göndərənə, buludlarla örtülməsinə baxmayaraq, insanlar günəş işığından faydalana bildiyi kimi, qeyb dövründə şiələr də onun nurundan nur alacaq, rəhbərliyindən faydalanacaqlar. Cabir, bu, Allahın gizlətdiyi sirlərdən və Allahın gizlətdiyi bilgidir. Buna görə də, onu yalnız layiq olana söylə".

Göründüyü kimi, yuxarıdakı ayədə Allah-təala insanlara bu əziz bəndələrinə itaət etməyi əmr etmişdir. Burada Allah-təala əvvəlcə Onun özünə, ikinci Peyğəmbərə (s) və üçüncü "əmr sahibləri"nə itaət etməyi buyurub. Ayədə Allah-təala və Peyğəmbər (s) məlumdur. Lakin əmr sahiblərinin kimlər olduğunu izah etmək lazımdır. Böyük təfsir alimləri öz kitablarında "əmr sahibi" ifadəsi barəsində bu cür yazmışlar: "Əmr sahibləri Həzrət Əli (ə) və onun on bir övladıdır". Deməli, bu ayədə Allah-təala on iki imama itaət etməyi vacib bilir. İstedadlı qələm sahibi, şair Mövlanə Məhəmməd Füzuli bir beytdə yazmışdır:

Tövbə qıldıq, ömrümüzdə bir kəsi mədh etməyək,
Bir Əli, bir də onun övladı-pakindən səva.

Başqa bir yerdə şair yazır:

Əli və on bir imam oğlunun məhəbbətidir,
Nizama salmış ay ilə ili və həftələri.

XVIII əsrin mütərəqqi şəxsiyyətlərindən biri və ədəbi fəaliyyəti sırf xalqa bağlı, gözəl təbə malik olan şair M.P.Vaqif bir müstəzadında Peyğəmbərin (s) buyurduğu hədislərə istinad edərək, On iki imama (ə) etiqad göstərməyi və sevməyi nəzmə çəkmişdir ki, burada Əhli-beytə (ə) bağlı olan insanların Qiyamət günündə nicat tapanlardan olduğunu vurğulayır və özünü də onlara bağlı sayır:

İsna əşərə çakəri kəmtər ola Vaqif,
Sərdaridi əla,
Xaki-dəri-övladi-peyəmbər ola Vaqif,
Neylər dəxi dünya?
Ol gündə ki, həngameyi-məhşər ola Vaqif,
Tut daməni-mövla!
Fəryadrəsin Heydəri-Səfdər ola Vaqif,
Xovf eyləmə əsla!
Sən qərqsən hərçənd ki, dəryayi-vəbalə,
Tövhiqi bulansan!

Tanınmış sünni alimlərindən biri Əbu Bəkr İbn Mətin İbn Abbasdan nəql edir ki, bu ayə Əlinin (ə) barəsində nazil olmuşdur. Bir sıra mötəbər və tutarlı rəvayətlərdə bu

ayənin Həzrət Əliyə (ə) aid olduğunu çatdırır. Böyük təfsir alimlərindən olan və əhli-sünnə məzhəbinə mənsub olan Hakim Həskani Hənəfi Nişaburi bu ayənin təfsirində hədis nəql edib ki, onların hamısında "ülul-əmrin" Əliyə (ə) aid olduğu göstərilir. Həmçinin, "Şəvahidud-tənzil" əsərində də bu ayənin Əlinin (ə) vilayəti barəsində olduğunu göstərən çoxlu sayda hədislər nəql olunmuşdur.

Hakim Nişaburinin rəvayət etdiyi hədislər:

1. Həzrəti-Əlinin (ə) özündən nəql olunur. Əli (ə) buyurur: "Soruşdum ki, ya Rəsulullah, "ülul-əmr" kimlərdir? Həzrəti-Peyğəmbər (s) buyurdu: "Birincisi sənsən."

2. Məşhur təfsirçi Mücahiddən nəql edir: Bu ayə o vaxt nazil olub ki, Həzrəti-Peyğəmbər (s) Əlini (ə) öz yerinə canişin təyin edib, özü Təbuk müharibəsinə getdi.

3. Səd ibn Vəqqas nəql edir: "Peyğəmbər (s) Təbuk döyüşünə gedirdi. Əli (ə) əlində silah onun ardınca gəlib dedi: "Ya Rəsulullah, mən heç bir döyüşdə səndən ayrı düşməmişəm. İndi mən Mədinədə qalıram, münafiqlər də şayiə yayacaqlar ki, yanınızda olmağımdan xoşunuz gəlmir". Səd deyir: "Öz qulağımla eşitdim ki, Rəsulullah (s) buyurdu: "Ey Əli, istəmirsənmi ki, Harun Musa üçün necə idisə, sən də mənim üçün elə olasan?" Yəni, Harun Musanın (s) canişini idi, sən də mənim canişinim olasan? Ya Əli (ə), qayıt, Mədinəni münafiqlərdən qoru. Elə bu vaxt həmin ayə nazil oldu və "ülul-əmrə" itaət vacib edildi."

Əhli-beyt (ə) şairi M.Füzuli bu ayə və hədisi belə qələmə almışdır:

Dedi Əhməd: Əli mənlə olub Harunla Musa tək,
Şəriklik rəmzi var bunda, kəmali-cahi-izzətdir.

“Nübuvvətdə Əlinin dəxli yoxdur” ey deyən insan,
Nübuvvət əmrinə şirkət deyil bu, hifzi-ümmətdir.

Deyillər, dari-dünyadan gedən vəxtində Peyğəmbər,
Əlini, söyləmişdir, hifz qılmaq eyni-şükrətdir.

Bir ali-firqədir, məhşər olunca, nəsli-peyğəmbər,
Bəqayi-dinə baisdir, həm onlar kani-himmətdir.

Kimi görsəm, peyğəmbər nəslidir, ali-Əlidəndir,
İki ali məqamın nəsli-paki çün ki, şirkətdir.

Həmin ayədə ən mühüm nöqtə budur ki, Allah-təala əmr sahiblərinə itaət edilməsini özünə və Rəsuluna itaət edilməsi ilə yanaşı əmr edir.

Əbu Bəsir İmam Sadiqdən (ə) soruşur: “Yəbnə Rəsulullah (s), camaat bizə deyir ki, nə üçün Allah-təala Qurani-Kərimdə Əli (ə) və onun Əhli-beytinin (ə) adlarını çəkməmişdir?”

İmam Sadiq (ə) buyurdu: “Onlara belə cavab verin ki, Rəsuli-Əkrəmə (s) namaz hökmü nazil oldu, amma Allah-təala onun üç və ya dörd rükət olmasını bəyan etmədi. Həzrəti-Peyğəmbər (s) də özü camaat üçün rükətlərin sa-

yını bəyan etdi. Həmçinin, zəkatın hökmü ümumi şəkildə nazil oldu, amma onun incəlikləri və hansı halda vacib olması bəyan olunmadı və Peyğəmbər (s) özü şəxsən onları aydınlaşdırdı. Habelə, Allah-təala həccin vacib olmasını əmr etdi, amma neçə dəfə təvaf etməyin vacib olmasını bəyan etmədi və Peyğəmbər (s) bunu da özü camaata bəyan etdi. Həmçinin Allah-təala "Allaha, onun Rəsuluna və əmr sahiblərinə itaət edin" ayəsinin nazil etdi, amma əmr sahiblərinin kimlər olduğunu bəyan etmədi və bunun aydınlaşdırılmasını Peyğəmbərin (s) öhdəsinə qoydu. Həzrəti-Peyğəmbər (s) müxtəlif hadisələrlə əlaqədar olaraq əmr sahiblərinin (yəni, özündən sonra ümmətin imamları və özündən sonra haqq canişinlərinin kimlər olduğunu) dəfələrlə bəyan etmiş və İslam ümmətinə çatdırmışdır."

Peyğəmbər (s) buyurub: "Məndən sonra xəlifələr on iki nəfərdir, hamısı da Qureyşdəndir." Həzrəti-Peyğəmbər (s) hər bir münasibətdə əmisioğlu Həzrəti-Əlinin (ə) fəzilətlərini xalqa çatdırıb buyurardı: "Əli (ə) mənim qardaşım, məndən sonra varisim və xəlifəmdir, onu eşidin və ona tabe olun."

Sultan Mahmud Qəznəvinin zamanında İsfahan mahalında bir arif yaşayırmış. Bu arifin mərifəti, imanı, əqidəsi barədə şaha o qədər danışmışdılar ki, şah özü də bu arifi görməyə can atırdı. Bir gün şah öz adamlarına dedi: "Mən İsfahana getmək istəyirəm ki, görüm, onun haqqında deyilənlər düzdür, ya yox?" Şah adamları ilə birlikdə İsfahana gəlir. İsfahana çatanda şah bir qasid göndərərək

həmin arifin onun pişvazına çıxmasını istəyir. Şah qasidə deyir: "Get, həmən arifə de ki, şahın mübarək qədəmləri İsfahan torpağına düşüb, yaxşı olar ki, gedib onu siz qarşılayasız. Əgər gəlməsə, ona Quranda olan bu ayəni oxu və məni "əmr sahibi" kimi ona təqdim et. De ki, Allah buyurub: "İtaət edin Allaha, Onun rəsuluna və əmr sahiblərinə." Qasid həmin arifin xidmətinə gəlir və şahın əmrini ona çatdırır. Amma arif qasidə məsləhət görür ki, şəhərin nüfuzlu adamları şahı qarşılasın. Vəziyyəti belə görən qasid Qurandan bu ayəni oxuyaraq arifə xatırladır ki, şah da bu ayədə gələn "əmr sahiblərin"dən biridir və sənin də vəzifən əmr sahibinə itaət etməkdir. Arif bu qasidin sözlərini dinlədikdən sonra qasidə arifanə bir cavab verib deyir: Mən oxuduğunuz ayədə "Ətiullah"da (əvvəl Allaha itaət edin) elə qərq olmuşam ki, "Ətiurrəsul"da (Rəsula itaət edin) şərməndəyəm. Əgər Allah və Rəsulunun və əmr sahibləri olan 12 İmamın itaətin yerinə yetirə bilsəm, şahın da xidmətinə yetişərəm." Qasid heç bir söz deyə bilmir və şahın xidmətinə qayıdır.

Ya Rza! Bu qərib canımə lütf et,
Ərzəmlə Əlinin hüzuruna get.

14 məsumdan biri olan və İmamət səmasının səkkizinci parlaq ulduzu Əli ibn Musər-Rza (ə) hicrətin 148-ci ilində, Zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya gəlmişdir. Atası İmam Kazım (ə), anası Tüktəm xanım idi.

Əllamə Məclisi "Cilalül-üyun" kitabında İmam Rzanın (ə) tərcümeyi-halı barədə yazır: "O Həzrətin şərif adı Əli, künyəsi Əbül-Həsən və ən məşhur ləqəbi Rzadır. Ona Sabir, Fazil, Rəzi, Vəfi, Qurrətül- eynil-möminin (Möminlərin gözünün işığı) və Qeyzül-Müləhhidin (Dinsizlərə qəzəb eləyən) də deyirmişlər.

Musa ibn Cəfərdən (ə) sonra, övladı Əbül-Həsən Əli ibn Musər-Rza (ə) imamlıq məqamına layiq olmuşdur. O Həzrət digər qardaşlarına nisbətdə daha üstün elmə, səbrə və təqvaya malik idi. Onun ictihadı (ibadətdə çalışqanlığı) isə hamıdan üstün idi. Şiə və əhli-sünnə arasında belə, ali sifətlərin o Həzrətə məxsus olmasında ixtilaf yoxdur. Hamı o Həzrəti bu sifətlərlə tanıyırdı. Onun ilahi rəhbər və imam olmasına başqa bir möhkəm dəlil atası İmam Museyi-Kazımın (ə) buyurduğu hədislərdə özündən sonra imamın kim olmasına dair işarələrdir. İmam Kazım (ə) oğlu Əlidən (ə) başqa digər oğulları barədə imamlıq göstərişi verməmişdir. Belə ki, İmam Kazımın (ə) buyurduğu hədislərin birində oxuyuruq: "İmamət nur və işıqdır, Allah-təalanın "Allaha, onun Peyğəmbərinə və nazil etdiyimiz nura iman gətirin!" (ayəsində) buyurduğu "nur" həmin imamət nurudur".

İMAM RZANIN (ə) İMAMƏT MƏQAMINA ÇATMASI

İmam Rza (ə) atası İmam Museyi-Kazımın (ə) şəhadətindən sonra hicri-qəməri 183-cü ildə 35 yaşında İmamət məqamına çatdı. Onun imamət müddəti 20 il çəkdi. İmam Rzanın (ə) yaşayış dövrünü üç hissəyə bölmək olar:

1. İmamətdən qabaqkı dövr - 35 il
2. İmamətdən sonrakı dövr Mədinə şəhərində - 15 il
3. İmamətdən sonrakı dövr Xorasan şəhərində - 5 il

Birinci on ili Harun-ər-Rəşidin xilafəti dövrünə, ondan sonra 5 il Harunun böyük oğlu Məhəmməd Əminin xilafəti dövrünə, axırıncı 5 ili isə Harunun kiçik oğlu Abdullah Məmunun xilafət dövrünə təsadüf etmişdir.

İmam Rza (ə) Harun ər-Rəşidin xilafəti dövründə Mədinə şəhərində yaşadı. İmam (ə) Mədinədə olduğu müddətdə çoxlu şagirdlər yetişdirmişdir.

Bəzi bədxahlar İmamın (ə) bu işlərindən xəbərdar olduqda Bağdada gəlib Harunla görüşüb ona çatdırdılar ki, bəs Musa ibn Cəfərdən sonra oğlu onun yerində oturub imamət iddiası edir. Bu, sizin xilafətiniz üçün qorxuludur. Harun əsəbi halda dedi: “Atası ilə etdiyimiz kifayət deyilmi? İstəyirsiniz qılıncı əlimə götürüb bütün ələviləri məhv edim?”. Harun xəbər gətirənlərə əhəmiyyət vermir. Belə-

liklə, İmam Rzanın (ə) imamlıq dövrü davam edir. Tarixi sənədlərdə qeyd olunur ki, İbn Qavləveyh (öz sənədi ilə) Davud Riqqidən belə nəql edir: "İmam Kazımdan (ə) soruşdum: "Sizə fəda olum! Artıq yaşlanmışam. Əlimdən tutub, məni oddan xilas edin! Sizdən sonra imam kimdir?" İmam Kazım (ə) oğlu Əbül-Həsən Rzaya (ə) işarə edib belə buyurdu: "Məndən sonrakı sahibiniz (imamınız) budur".

Əbülqasim Cəfər ibn Mühəmməd başqa bir sənədlə Nüeym Qabusidən İmam Kazımın (ə) belə buyurduğunu nəql edir: "Əli oğullarımın ən böyüyüdür. Aralarından ən çox onu sevirəm. O mənimlə birlikdə "Cəfrə" baxır. Ona (Cəfr kitabına) nəbi və ya vəsidən başqası baxa bilməz".

İMAMIN (ə) “RZA” ADLANDIRILMASININ SƏBƏBİ

İmam Rzanın (ə) səhabələrindən biri İmamın oğlu, 9-cu imamımız İmam Cavaddan (ə) sual etdi: “Sizin müxaliflərinizdən bir dəstə belə güman edirlər ki, Bəni-Abbasi xəlifəsi Məmun İmam Rzanı (ə) özünə vəliəhd seçən vaxt “Rza” ləqəbini yüksək məqamlı atanıza verdi, bu doğrudurmu?”. İmam Cavad (ə) buyurdu:”And olsun Allaha, onlar yalan deyirlər. Allah-təala onu “Rza” adı ilə adlandırdı. Çünki asimanda Allah yanında bəyənilmiş, Yerdə isə Allah Rəsulu (s) və Əhli-beyt (ə) ondan razı olmuşlar və Allah onu imamətə bəyənmişdir”. Sual edən səhabə deyir ki, mən yenidən İmam Cavaddan (ə) soruşdum: “Sənin keçmiş ataların Allah, Peyğəmbər (s) və İmamət (ə) tərəfindən bəyənilmişdimi?” İmam Cavad (ə) buyurdu: “Bəli!” Dedim: “Bəs nə üçün İmam Rza (ə) onların arasından bu ləqəblə tanınmışdır?” İmam Cavad (ə) buyurdu: “Çünki dostları onu sevdikləri kimi, düşmənləri və müxalifləri də onu sevmiş və ondan razı olmuş, həmçinin də bəyənmişlər”.

İbn Babəveyh mötəbər sənədə əsaslanaraq, Süleyman İbn Həfsdən nəql edir ki İmam Museyi-Kazım (ə) daim öz sevimli oğlunu “Rza” deyə səsləyər və buyurardı: “Mənim oğlumu “Rza” deyə səsləyin. Mən də onu “Rza” adı ilə səsləmişəm”. O, Həzrətə xitab edəndə, onu “Əbül-Həsən” deyə çağırardı.

İmam Rzanın (ə) “Qərib” adlandırılmasının səbəbi

Lüğətdə vətənindən uzaq düşmüş insana qərib deyirlər. Amma Həzrət Əli (ə) buyurur: "Qərib o kəsdir ki, dostu olmasın”.

Ona görə də İmam Rzanı (ə) vətənindən uzaq düşdüyünə və sürgün olduğu zamanlarda yar və yavəri olmadığına və məzlum halda şəhid edildiyinə görə qərib adlandırırlar.

İmam Rzanın (ə) özündən özü haqqında belə hədis vardır: "Hər kim qeybətimdə məzarımı ziyarət edərsə, Qiyamət günü üç dəfə fəryadına çataram. O yerin dəhşətindən ona nicat verərəm. O zaman ki, əməl dəftərini sağ və ya sol əlinə verəcəklər, Sirat zamanı, əməllərinin çəkildiyi zaman”.

Azərbaycan əhalisinin gözündə İmam Rza (ə) qətiyyən qərib deyildir. Bizim camaat deyir ki, imamın (ə) bizim kimi sevənləri olan yerdə o Həzrət (ə) necə qərib ola bilər? O cənab qərib yox, Xorasan şahıdır. Bu isə misrada o ulu din böyüyünə aid edilmiş ikinci epitetdir. Bəllidir ki, Xorasan torpağı çox əski çağlardan ilahiyyat və irfan qaynağıtək ad çıxarmışdır.

İmam Rza (ə) haqqında olan ikinci misra həm ümumi şəkildə, həm də xüsusi surətdə başa düşülə bilər. Misranın ümumi şəkildə başa düşülməsi bəllidi. Belə ki, Aşıq Ələsgər qoşmanın əvvəlində bəhs mövzusuna çevirdiyi "sidq məsələsi"nin üzərinə yenidən qayıdır. Ancaq xüsusi surətdə misradan ələ gələn qənaət Aşıq Ələsgərin burada İmam Rza (ə) ilə bağlı iri bir əhvalatı təlmih etdiyini göstərir. Həmin əhvalat "zamini-ahu"dur. Əhvalat belədir:

"Bir ovçu səhrada bir ahunu təqib edərək şikar etmək istəyir. Ahu qaçaraq uzun məsafədən onu öz ardınca gətirir, nəhayət ahu o nahiyələrdə olan İmam Əli ibni Musər-Rizaya (ə) sığınır. Ahunu tutmaq istəyən səyyad İmam Rizanın (ə) maneəsi ilə qarşılaşır. Səyyad ahunu özünün şəri haqqı bildiyindən, onun qaytarılmasını israrla tələb edir. İmam (ə) ahunun qiymətindən artıq məbləği ona verməyə razı olur ki, ahunu azad etsin. Lakin şikarçı qəbul etmir və deyir: "Ahunu özümə verməlisən, öz haqqım olan bu ahunu istəyirəm, bundan başqa heç nə istəmirəm..." Bu zaman ahu dilə gəlib danışmağa başlayır və İmama (ə) deyir: "Mənim iki südəmər körpəm vardır və hər ikisi acdır. İndi mənim yoluma göz dikiblər. İcazə verin, gedib onlara süd verim və doyuzdurum. Siz bu şikarçının yanında mənə zamin olun, gedim balalarıma süd verim, sonra gəlib özümü təhvil verim."

İmam Riza (ə) zamin olur və özünü səyyadın ixtiya-

rında girov qərar verir. Ahu sürətlə gedib tez bir zamanda da qayıdır. Şikarçı ahunun əhdə vəfasını gördükdə qəflət yuxusundan ayılır və başa düşür ki, girov götürdüyü şəxs Əli ibni Musər-Rizadır (ə). Dərhal ahunu azad edir, İmamın (ə) əl-ayağına düşür və üzrxahlıq edir. Həzrət də ona nəzərə çarpacaq məbləğdə pul verir, qiyamət günü əziz cəddinin yanında ona şəfaət vədəsi verir və səyyadı razı halda yola salır. Azad olunduğunu görən ahu Həzrətdən (ə) icazə ala-raq balalarının yanına qayıdır".

Bu barədə müasir dövrümüzün şairlərindən olan, AYB-nin Xəzər bölməsinin sədri Arif Buzovnalının "Zamini-ahu"ya həsr etdiyi "Ahu" rədifli qəzəlindən bir neçə bey-tə diqqət yetirək:

Vüsal eşqilə düşmüşdür vətəndən dərbədər, ahu,
Duyub yar ətrini, çöllər gəzər axşam-səhər, ahu.

Sudan su inciməz damcı düşəndə damcı üstündən,
Məvəddət məşqin etməkçün gələr dünyaya hər ahu.

Xumar gözlər ləbaləb qan, nəfəs təng, durmadan qaçmış,
O səhradan bu səhraya yetirməkçün xəbər, ahu.

Cahanda, ey məhəbbət nemətindən bixəbər insan,
Sənin, zikrində, aciz qaldığın sözlə mələr ahu.

Zəiflik yox, zəriflik imtəhanından alıb əla,
Bəşər meydanına girmiş ki, göstərsin hünər, ahu.

İmam Rzaya (ə) fərqli bir münasibətin yaranmasında onun qeyri-ərəb torpağı olan Məşhəddə dəfn edilməsidir. Belə ki, bu fakt İmam Rzaya (ə) bir “qərib”, bir “qonaq” olaraq yanaşmağa yol açmış, faciəli həyatının Yaxın və Orta Şərq xalqları arasında “müsibət dastanı”na çevrilməsini şərtləndirmişdir. Məhəmməd Əmaninin «Höccəti-samin, Əli-Musər-Riza» (Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!) rədifli şeiri bu din böyüyünün “qərib” və “qonaq” obrazlarından alınmış poetik təəssüratın parlaq təzahürü olaraq ortaya çıxmışdır. Biz bu məqalədə həmin şeiri izahı qısa ilə əziz oxucuların diqqətinə çatdırırıq:

Zayiründür övliyavü ətqiya,
Höccəti-samin, Əli-Musər-Riza.
Göz dikibdir qapına şahü gəda,
Höccəti-samin, Əli-Musər-Riza.

(Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili! Bütün vəlilər və təqvalılar səni ziyarət etmək eşqilə yaşayır. Şah da, dilənçi də Sənin mərhəmət qapına göz dikmişdir)

Rövzeyi-pakın ki, bar rəşki-cinan,
Hər rivaqidür məlayik-aşiyan.
Zahirü batin sana irür əyan,
Höccəti-samin, Əli-Musər-Riza.

(Cənnət bağlarının qısqandığı Sənin pak rövzən-dəfn olunduğun müqəddəs məkanın hər bir tağında mələklər məskən etmişdir. Zahirdə, batində baş verən işlərin hamısı əvvəl-axır Sənə aşkar olur. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

İnsü cin şeydavü bitabın sənin,
Cənnət əhli cümlə əhbabın sənin.
Aminü zamindür əlqabın sənin,
Höccəti-samin, Əli-Musər-Riza.

(Bütün insanlar və cinlər Sənə vurğundurlar və Səni görmək üçün qərardan gedirlər. Cənnət əhlinin hamısı Sənin sadiq dostlarındır. «Amin» deyən və «Zamin duran» kimi ad çıxarmısan. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Çün şəfiül-müznibinsən, ya İmam,
Bu səadət bizgə bəs yövmül-qiyam.
Bar adın virdi-məlayik sübhü şam,
Höccəti-samin, Əli-Musər-Riza.

(Ey imam, günahkarların şəfaətçisi olduğuna görə Qiyamət gününədək bu xlşbəxtlik bizə yetər. Sənin o bircə adın səhər-axşam mələklərin dilinin əzbəridir. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Ey zərihin qibleyi-hacat olan,
Nitqinin tutisiğə mirat olan.
Ehtisami-üzri-təqsirat olan,
Höccəti-samin, Əli-Musər-Riza.

(Ey müqəddəs məzarın tutacaq yeri, istəklərin, diləklərin qibləsinə çevrilən, sənin nitq tutuquşun güzgü kimi insanların ürəyindən keçəni əks etdirir. Yığın-yığın insanların öz suçlarını (günahlarını) dilə gətirmək üçün Sənin zirehindən yapışıb bərk tutduğu- yəni onlarla Allah arasında şəfaətçi olmağını istədiyi, Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Gülşənindir hurü qılman gül dərən,
Gülbədindür ğünçə hər gün nur verən.
Tövfin edənlərğə hər dəm feyz irən
Höccəti-samin, Əli-Musər-Riza.

(Huri- qılmanın sənin imamlıq çəmənindən gül dərdiyi, hər gün günəşə nur verən sənin işıqlı günbəzindir. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili! Sən etiraz edənləri belə əliboş qaytarmırsan)

Rözvənə ruhül-əmin fərraşlıq,
Etsə,tan irməs ki, bar sirdaşlıq.
Mehr edər görgəc yüzün xəffaşlıq,
Höccəti-samin, Əli-Musər-Riza. (7)

(Əgər Cəbrail(ə) sənin dəfn edildiyin müqəddəs məkanda fərraş kimi əl-əl üstə qoyub dayansa burada heç bir qəribəlik olmaz. Çünki, Sənin insan, onun mələk olmasına baxmayaraq aranızda möhkəm bir ruhi-mənəvi dostluq var. Günəş sənin mübarək camalını görər-görməz bir yarasa (gecə quşu) kimi tez qaçıb gizlənər. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Qütbi-afaq oldu hər bir xadimin,
Bazgəştidür qapun hər nadimin.
Ərzi-hal irdi ğərəz iradimin,
Höccəti-samin, Əli-Musər-Riza.(8)

(Üfüqlərin hər bir qütbü sənin bir xidmətçinə çevrildi. Sənin qapın hər peşman olanın qayıdacağı yerdir. Bütün diləklər, bütün istəklər Sənin imamlıq iradənlə gəlib yerini alır. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Bar məlayik birlə bihədi-bəşər,
Həmsəbəq hafizlərin şamü səhər.
İzlərinin tozi mazağgül-bəşər,
Höccəti-samin, Əli-Musər-Riza.

(Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili! Mələklərlə insanlar səhər-axşam Quran hafizləri kimi əlifba öyrənmək yönündə yarışırlar. Onlarının izlərinin tozu «mazağul-bəsər»- «Peyğəmbərin gözü yayınmadı və həddi aşmadı» («Nəcm.17») ayəsini yazırlar).

Hər səhər müğlər yilər əlhanidin,
Əhli-dərdin dideyi-giryanidin.
Axsa əşki, yol tapar dərmanidin,
Höccəti-samin, Əli-Musər-Riza.

(Sənin müqəddəs məkanında yer alan göyərçinlər səhər sənin eşqində müqəddəs nəğmələr oxuyurlar və onların oxuduqları bu nəğmələr dərd əhlinin göz yaşlarından ibarətdir. Kim Sənin türbəndə göz yaşı töksə o, mütləq dərdinə dərman tapar. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Qətreyi-əşkin edən dürdanələr,
Oldilər şəmin görüb pərvanələr.
Can verürlər rəşkdin fərzanələr,
Höccəti-samin, Əli-Musər-Riza.

(Göz yaşı damlalarını mirvariyə, inciyə çevirənlər, Sənin imamlıq şamının ətrafında bir pərvanəyə çevrilirlər. Odur ki, dünyanın bütün aqil insanları bunu görüb qısqanclıqdan həlak olurlar. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Talibani-elm hər tədrisdə,
Əksəri dərsi oxub təhsisdə.
Cəm olurlar məclisi-təqdisdə,
Höccəti-samin, Əli-Musər-Riza.

(Bütün tədris sahələrində elm axtaran şəxslərin çoxu Sənin məktəbində çox həssaslıqla dərs oxumuşdur. Odur ki, onlar müqəddəs bir məclisdə -yəni Sənin hərəminin çevrəsində toplaşırlar. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Həbbəza carübkəşlər müttəsil,
Eyləmişlər səhnidin xüldü xəcil.
Varidindin zayil olur rəngi-dil,
Höccəti-samin, Əli-Musər-Riza.

(Süpürgəçilər durmadan Sənin hərəminin həyətini (təmizlik baxımından) cənnətin xəcalət çəkməsinə yol açan bir yerə çevirmişlər. Sənin zəvvarlarının ürəyindən bütün dünya rəngləri yuyulub gedir və onlar yalnız Allah rənginə boyanırlar. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Bar Əmani şərmsarü rusiyah,
Əfvi-təqsirati üçün üzrxah.
Eyləmiş lütfün bedərgahi-ilah,
Höccəti-samin, Əli-Musər-Riza.

(Əmani, sən xəcalətli və üzüqara şəkildə günahlarının əfvi üçün onun hərəminə üzürxahlığa get. Çünki, sənin lütvün Allah dərgahından başlanğıc götürür. Sən ey səkkizinci Allah höccəti, ilahi qüdrət və hikmət dəlili!)

Qurani-Kərimin “Nisa” surəsinin 69-cu ayəsində buyrulur: “Allaha və Peyğəmbərə itaət edənlər (axirətdə) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!”

Bir nəfər imam Rzaya (ə) öz kasıblığından şikayət edirdi. İmam Rza (ə) ondan soruşdu ki, bizi sevirsən?

Buyurdu: “bəli!”

İmam Rza (ə): “Bu məhəbbəti dünyanı versələr dəyişərsən?”

Yoxsul: “Xeyr!”

İmam Rza (ə): “İki bu dünya böyüklüyündə dəyər versələr verərsən?”

Yoxsul: “Xeyr ağa can!”

İmam Rza (ə): “Niyə şikayətlənirsən axı?! Sən dünyanın ən dövlətli insanısan ki, İmam Rzanı (ə) sevirsən. Səndə elə dövlət var ki, heç nə ilə əvəz olunmur.”

Müasir dövrümüzün gözəl təbli şairlərindən olan Əhli-beyt (ə) aşiqi Hacı Gülbala Fənainində gözəl bir qəzəlini oxuculara təqdim edirik:

Ey əhli-eşqə sevgili canan olan Rza!
İsmət bağında ətrili reyhan olan Rza!

Hicran əlində könlüm əsir oldu, gəl yetiş,
Ovçu əsiri ahuya dərman olan Rza!

Can çıxdı firqətində, vüsalın nəsib elə,
Ey ruhsuz bədənlərə bir can olan, Rza!

Ali-Mühəmmədin, ey olan elm mənbəyi,
Ey padşahi-mülki-Xorasan olan Rza!

Etdin "Qədiri" şərh cahanə kəçavədən,
Nişapur əhlinə məhi-taban olan Rza!

İslamın İnqilabına sən olmusan dayağ,
Ey dövlətiylə hafizi-İran olan Rza!

Sənsən şəhidlərin o vilayətdə rəhbəri,
Can üstə hər şəhidinə mehman olan Rza!

Yetsən, Fənai, qəbrinə o sərvərin de ki,
Ey iftixari-Azəribaycan olan Rza!

Azərbaycan ədəbiyyatı tarixində İmam Rzaya (ə), eləcə də digər imamlarımıza həsr edilmiş çox sayda bədii sənət nümunələri vardır. Bu dərgi klassik poeziyamızdan və aşıq ələbiyyatımızdan iki nümunə ilə kifayətlənirik.

Seyid Əbülqasim Nəbatinin İmam Rza (ə) ilə bağlı aşağdakı beyti İmam (ə) haqqında təəssüratın XIX yüzillikdə də bütün aydınlığı və genişliyi ilə davam etdiyini sübuta yetirir:

Gedərəm dadə əlindən sənin, ey düşməni-can,
Düşsə gər barigəhi-şahi-Xorasan əlimə!

(Ey mənim ruhuma düşmən kəsilən bədxah, əgər Xorasan şahının sarayının (İmam Rzanın Məşhəddəki türbəsinin) ziyarəti mənə müyəssər olsa, mütləq ona səndən şikayət edəcəyəm).

Nəbati kimi bir klassikin Məşhəd şəhərini belə güvənc yerinə çevirməsinin mütləq möhkəm dini əsasları olmalı idi. Aşağıdakı hədislər məhz belə nəqli dəlillər sırasındadır. İslam rəhbəri (s) buyurmuşdur. "Çox çəkməz ki, qəlbimin bir parası Xorasan torpağında dəfn edilər. Hər bir qəm-qüssəli şəxs onu ziyarət etsə, hökmən Allah onu sevindirib, qəm-qüssəsini dağıdar. Hər bir günahkar şəxs onu ziyarət etsə, hökmən günahları bağışlanar".

"Neynim" rədifli qoşmasında Aşıq Şəmşir yaşadığı dövrdəki qadağalardan şikayət edir:

Şəmşir ha səsləyir yazı yazanı,
Müdam ruhum cövlan edir havanı.
Ziyarət etməyə İmam Rzanı,
Yol verilmir gedə qonağa, neynim!

Görünür ki, Aşıq Şəmşir dövrünün bəzi qadağanları üzündən dini ziyarətlərdən məhrum qalmışdır. Bəlkə də ən böyük arzusunun həyata keçmədiyinə görə həsrətdə olan aşıq qəlbinin dərinliyində olan incikliyini obrazlı şəkildə qələmə almışdır. Bütün varlığı ilə Qurani-Məcidin, Peyğəmbərin (s) və pak Əhli-beytin (ə) eşqinə bağlı olan Dədə Şəmşir haqlı olaraq divanini belə bitirir:

Şəmşirəm, mən halalıma haram maya qatmadım,
Bir betərə tələ qurub hiylə, kəmənd atmadım.
Bir ziyarət arzuladım, təmənnaya çatmadım,
Getdim həsrət, intizarlı, ey çərxi-zamanə, mən.

Divaninin son bəndində Aşıq Şəmşir halal yaşamağı, haramdan daim uzaq olmağı, həyatda heç kəsə hiylə, kələk qurmamağı, nahaqdan başqalarına böhtan atmamağı tövsiyə edir. Eyni zamanda imam Rzanın (ə) ziyarətini ürəkdən arzu edir, bu ziyarətin intizarı ilə yaşayır və bu ziyarətin ona qismət olmayacağını bilib, bu dünyada çərxi-fələyə şikayət edərək əbədi aləmə qovuşur.

Həruyidən belə nəql edilir: "Həzrəti-Rzadan (ə) eşitdim ki, buyurur: "Allaha and olsun ki, heç biri bizdən deyildir, ancaq öldürülənlər və şəhid olanlardan başqa”.

Ərz etdim: "Ya ibni Rəsullah! Sizi kim öldürəcəkdir?”

Buyurur: "Mənim zamanımdakı Allahın ən pis xəlqi. Məni zəhər vasitəsilə öldürəcəkdir. Sonra məni uzaq bir məkanda və qürbət yerdə dəfn edəcəkdir.

Bil ki, hər kim məni qeybətimdə ziyarət edər, Allah-təala yüz min şəhidin, yüz min sadiqin və yüz min həcc edənin, ümrə edənin və yüz min mücahidin əcrini onun üçün yazar. Bizimlə məhşur olar. Behiştin ali dərəcəsində bizimlə olar”.

Mərhum şairimiz Borcunlu Məzahir Daşqın “Şikayətim var” rədifli qoşmasında 14 Məsuma və məxsusən Xorasan Şahına olan şikayətini belə nəzmə çəkmişdir:

Zəmanə qəhrinnən, çərxi fələkdən,
Məni Yaradana şikayətim var.
Zalım fələk bil ki, sənin əlindən,
O Şəhi-Mərdanə şikayətim var.

Qızıl gültək yeddi qönçə yetirən,
Aparıban Kərbəlada bitirən.
Ruziyə də xoş günləri gətirən,
Məryəm xatuna şikayətim var.

Aman ya Rəbb, qoyma nahaq atlana,
Çəkə qılıncını, susaya qana.
Haqqın tərəfdarı Sahib-Zamana,
İmam əsirinə şikayətim var.

Hamı şad, xuraman gəzir evində,
Təkcə mənəm, ya Rəbb, bu qəm evində.
Biçarə Daşqının zəlil günündə,
Şahi-Xorasana şikayətim var.

Həzrəti-Rzadan (ə) belə nəql edilir: "Mən qürbət torpaqlarda öldürüləcəyəm, zəhərlənəcəyəm və dəfn olunacağam. Bunu atam atasından, o da Əli ibni Əbitalibdən və o, da Peyğəmbərdən (s) eşitmişdir və mənə vəsiyyət etmişdir.

İmam Rza (ə) hicrətin 203-cü ilində Xorasan vilayətinin Tus şəhərində şəhid olmuşdur. Həmin vaxt İmamın (ə) əlli beş yaşı var idi. İmam Rzanın (ə) atasından sonra imamlıq müddəti iyirmi il olmuşdur.

İmamət səmasının səkkizinci parlaq ulduzu Qərib İmam Rzanın (ə) mübarək mövludu münasibətilə dünya müsəlmanlarını, məxsusən Azərbaycan xalqını səmim qəlbdən təbrik edirik və Ulu Tanrıdan qəlb çırpıntıları ilə diləyirik ki, bizləri bu dünyada Quranın və 14 Məsumun itaətindən və ziyarətindən, məhşər günü şəfaətlərindən binəsib və bepay etməsin! Amin! Ya Rəbbəl Aləmin!

Axund Hacı Soltan Hüseynqulu oğlu

İMAM RZANIN (Ə) MÖVLUDU MÜNASİBƏTİLƏ

Muştuluq, ey könül, müjdə, ey ürək,
Qərib İmam Rza cahana gəlib.
Dəvasız dərdlərə etməyə çarə,
Dünyayə sahibi-zəmanə gəlib.

Açılır qəlblərə vurulmuş dügün,
Bir kimsə bəşərdən olmasın üzgün,
Sevinc ilə ölçsən bir gündü bu gün,
Vəsfi nə zənnə, nə gümanə gəlib.

Sevincdən yaşarıb gözü Xudanın,
Fərəhi cuş edir ali-əbanın.
Bülbüliər cəh-cəhlə açıb zəbanın,
Bu dəfə sevincdən fəqanə gəlib.

Məhbəsdən çıxarıb fələk həyatı,
Yaşıl rəng bürüyüb bu kainatı.
Görüb bu aləmi, bu cür büsatı,
Kafərlər də dinə, imanə gəlib.

Dünya bivəfadır, dünya gididir,
Gah zəhər, gah da ki ana südüdür.
Bu gün yaxşılığın təvəllüdüdür,
Allahın hünəri meydana gəlib.

Dinsizə bu günçün verilməz cəza,
Bu günü savabçın yazıbdır qəza.
Qəbul et qonağın, ya İmam Rza,
Soltandı, cənnəti-rizvana gəlib.

HACI HƏSƏN HÜSEYNİ

“Qərib İmam Rza (ə) Xorasan Şahı”

İMZA

NƏŞRLƏR EVİ

Direktor: **Səbuhi Aslan**

Dizayner: **Veys Əliyev**

Mətni yığan: **Dilbər Ağayeva**

Texniki redaktor: **Hüseyn Məmmədov**

Yığılmağa verilib: 01.06.2022
Çapa imzalanıb: 10.06.2022
Ofset çapı. Əla növ kağız
Tiraj: 200
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru